

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 122 (21.023)

*29 iyun 2014-cü il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



İyunun 28-də Bakıda ATƏT Parlament Assambleyasının “Helsinki+40: Hər kəs üçün təhlükəsizliyə doğru” devizi altında iyirmi üçüncü illik sessiyasının plenar iclasının açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə ATƏT-in 2011-2014-cü illərdəki fəaliyyətini əks etdirən fotostendə baxdı. Stenddə Azərbaycanın qurumdakı fəaliyyətindən bəhs edən fotolar yer almışdır. Burada həmçinin ATƏT-in sessiyalarında çıxışlar zamanı qurumda təmsil olunan ölkələrin nümayəndə heyətlərinin fotoları təqdim edilir.

Sonra ATƏT Parlament Assambleyasının iyirmi üçüncü sessiyasının plenar iclasının açılış mərasimi oldu.

İclası açan ATƏT Parlament Assambleyasının sədri Ranko Krivokapiç tədbirin əhəmiyyətini qeyd etdi, onun Bakıda təşkilinə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev iclasda çıxış etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Birləşmiş Ştatların Missisipi ştatından olan respublikaçı senator Rocer Uikerin və Nyu Cersi ştatından olan respublikaçı konqresmen Kristofer Smitin başçılıq etdikləri ABŞ nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, ATƏT Parlament Assambleyasının Bakıda keçirilən iyirmi üçüncü illik sessiyasının əhəmiyyətinə toxunularaq tədbirdə səmərəli müzakirələrin aparılacağı əminliklə qeyd olundu.

Söhbət zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ATƏT Parlament Assambleyası çərçivəsində əməkdaşlığımız ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Monteneqro Parlamentinin sədri, ATƏT Parlament Assambleyasının prezidenti Ranko Krivokapiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilmişdir

İyunun 28-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:





1. 2014-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

3. “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi.

2014-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov demişdir ki, cari ilin yanvar-may ayları ərzində muxtar respublikada tikinti-quruculuq işləri uğurla davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Naxçıvan Muxtar Respublikasına, ümumilikdə, 18 milyon manat vəsaitin ayrılması burada gedən quruculuq işinə böyük töhfə olmuşdur. Hesabat dövrü ərzində təhsil, mədəniyyət, səhiyyə, rabitə, energetika və digər sahələr də daxil olmaqla, müasir tələblərə cavab verən yeni obyektlər istifadəyə verilmiş, yollar salınmış, körpülər tikilmiş, istehsal, xidmət sahələrinin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Həyata keçirilən tikinti-quruculuq işlərində keyfiyyət əsas götürülmüş, muxtar respublikada istehsal olunan yerli tikinti materiallarından istifadəyə üstünlük verilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunması, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yeyinti, yüngül və digər sənaye sahələrinin təşəkkülü və inkişafının davamlı xarakter alması nəticəsində 2014-cü ilin yanvar-iyun aylarında 471 milyon 580 min manatlıq sənaye məhsulu istehsal edilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2014-cü ilin ötən dövründə də sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən olmuş, Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 87 faizə çatmışdır. Muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş istehsal müəssisələrində istehsal olunan məhsulların sayı 349-a çatdırılmışdır. Hazırda 334 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Sessiyada çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Bəxtiyar İsmayılov qeyd etmişdir ki, muxtar respublikanın iqtisadiyyatında müşahidə olunan dinamik artım cari ilin ilk 6 ayında da saxlanılmış, ötən ilin müvafiq dövrü ilə müqayisədə Ümumi Daxili Məhsulun həcmi 2,4 faiz, sənaye məhsulu 1,5 faiz, əsas kapitala yönəldilən investisiyalar 1,6 faiz, kənd təsərrüfatının ümumi məhsulu 6,4 faiz, ixracın həcmi 14,5 faiz, orta aylıq əməkhaqqı isə 2,1 faiz artmışdır. Ümumi Daxili Məhsulun tərkibində ilk yeri 31,5 faizlik payla sənaye sahəsi, ikinci yeri isə 22,9 faizlik xüsusi çəkiylə tikinti sektoru tutmaqdadır. Cari ilin ilk 6 ayı ərzində informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanları genişləndirilmiş, optik kabel magistrallarının inşası davam etdirilmiş, dövlət orqanlarının elektron xidmətlər sahəsində işi daha da təkmilləşdirilmiş, yeni nəsil telekommunikasiya sistemi istifadəyə verilmişdir. 2014-cü ilin məhsulu üçün muxtar respublikamızda 60 min 829 hektar sahədə əkin aparılmış, ötən dövrdə muxtar respublikadan kənara 25 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. Cari ilin ötən dövründə muxtar respublikada əhalinin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılmış, 1457 yeni iş yeri açılmışdır.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi qəbul edilmişdir.

Sessiyanın gündəliyinə daxil edilmiş ikinci məsələ ilə əlaqədar çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında məlumat verərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2013-cü ildə bütün mənbələr hesabına 55 milyon manat proqnoza qarşı 64 milyon 857 min 623 manat vəsait daxil olmuş, tapşırıq 117,9 faiz icra olunmuşdur. 2013-cü ildə büdcə daxilolmalarının 84,1 faizi Vergilər Nazirliyi, 12,9 faizi Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, 3 faizi isə büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olmuşdur. 2013-cü ildə dövlət büdcəsinə Vergilər Nazirliyi tərəfindən 49 milyon 600 min manat proqnoza qarşı 54 milyon 560 min 817 manat vəsait daxil olmuşdur ki, bu da nəzərdə tutulan məbləğdən 4 milyon 960 min 817 manat çox olmuşdur. 2013-cü ildə Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 4 milyon manat proqnoza qarşı 8 milyon 354 min 793 manat vəsait daxil olmuşdur ki, bu da nəzərdə tutulan məbləğdən 4 milyon 354 min 793 manat artıqdır. Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 2013-cü ildə 332 milyon 700 min manat təyinata qarşı 332 milyon 8 min 10 manat və ya 99,8 faiz icra olunmuşdur.

Sessiyada “Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu və “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sessiyada çıxış etmişdir.

*Ardı 2-ci səhifədə*

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf strategiyasının davam etdirilməsi nəticəsində bu gün Azərbaycan Respublikasının bütün bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial həyatın bütün sahələrində dinamik inkişafa nail olunmuşdur.

Muxtar respublikada davamlı olaraq əldə edilən uğurlu nəticələr Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi ilə əlaqədar elan olunmuş "Muxtariyyət ili"nin ötən 6 ayında da qorunub saxlanılmışdır.

Hesabat dövrünün ən yaddaqalan hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəridir. Hörmətli Prezidentimiz muxtar respublikanın inkişafı barədə demişdir: "Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Deməli, olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır..."

Ölkə rəhbərinin muxtar respublikada görülən işləri yüksək dəyərləndirməsi hər birimizdə iftixar hissi yaratmaqla yanaşı, məsuliyyət hissini də artırır. Blokada şəraitinin çətinliklərinə baxmayaraq, iqtisadi fəaliyyətin bütün sahələrində tərəqqiyə nail olmaq, əhalinin yaşayış səviyyəsini yüksəltmək, maddi rifah halını yaxşılaşdırmaq naminə muxtar respublikanın hakimiyyət və təsərrüfat strukturları bundan sonra da bütün səylərini səfərbər edərək "Muxtariyyət ili"ni daha yüksək nəticələrlə başa vurmalıdır. Bunun üçün 2014-cü ilin qalan dövründə aid orqanlar qarşısında daha ciddi vəzifələr dayanır.

Sosial-iqtisadi sahədə davamlı inkişaf tempinin təmin edilməsi muxtar respublika büdcəsinin, eləcə də iqtisadi fəaliyyətin bütün sahələrinə ayrılan maliyyə vəsaitlərinin həcminin ildən-ilə artmasına səbəb olmuşdur. Bu isə, öz növbəsində, maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasının əhəmiyyətini artırır. Maliyyə Nazirliyi və onun yerli orqanları maliyyə sektorunda fəaliyyətin gücləndirilməsinə nail olmalı, pul vəsaitlərindən təyinatı üzrə səmərəli istifadəyə diqqəti artırmalıdırlar.

Muxtar respublikada dövlət proqramlarının icrası iqtisadiyyatın çoxsahəli inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, investisiya qoyuluşlarının həcminin artması üçün geniş imkanlar açıb. İndi əsas vəzifə bu dinamikanı qoruyub saxlamaq və muxtar respublikanın hər bir sakininin rifahına xidmət edən iqtisadi artıma nail olmaqdır. Bunun üçün İqtisadiyyat və Sənaye Nazirliyi yerli xammal və ehtiyatlar əsasında rəqabətqabiliyyətli məhsul istehsal edən yeni müəssisələrin yaradılmasına diqqəti artırmalı, texnoloji nailiyyətlərə əsaslanan layihələrə üstünlük verilməlidir. Yerlərdə məskunlaşmaya və məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət edən sahələrin, o cümlədən xalq tətbiqi sənətinin müxtəlif növlərinin, eləcə də yerli təsərrüfatçılıq ənənələrinə əsaslanan kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmalıdır. Sahibkarlığın inkişafı və əhalinin işgüzar fəaliyyətinin artırılması sahəsində dövlət maliyyə yardımının göstərilməsi məqsədilə qısamüddətli və kiçikhəcmli kreditlərin verilməsi davam etdirilməlidir. Təqdim olunan biznes layihələr ciddi təhlil olunmalı, onların səmərəliliyi düzgün qiymətləndirilməli, ayrılmış kreditlərin təyinatı üzrə istifadəsinə və vaxtında qaytarılmasına nəzarət olunmalıdır.

2014-cü il ölkəmizdə "Sənaye ili" elan olunmuşdur. İqtisadiyyat və Sənaye Nazirliyi muxtar respublikamızda sənaye sahələrinin vəziyyətini təhlil etməklə sənaye parklarının yaradılmasını sürətləndirməli, müəssisələr qurularkən məşğulluq probleminin həlli və yerli xammaldan istifadə imkanları nəzərə alınmalı, istehsalın ərazi və xammal prinsipi üzrə səmərəli yerləşdirilməsi təmin edilməlidir.

Bazarlarda qiymətlərin süni şəkildə artmasının qarşısını almaq məqsədilə monitorinqlər aparılmalı və tədbirlər görülməlidir. Yerli kənd təsərrüfatı və digər istehsal məhsullarının birbaşa istehsalçılar tərəfindən satışını təşkil etmək üçün Kənd Təsərrüfatı Nazirliyi yerli icra hakimiyyətləri ilə birlikdə həftənin şənbə və bazar günlərində Naxçıvan şəhəri və rayon mərkəzlərində satış yarmarkalarının təşkilini bundan sonra da davam etdirməlidirlər.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi aidiyyəti orqanlarla birlikdə istehlakçıların hüquqlarının qorunmasına, ticarət, ictimai-iaşə, məişət və digər xidmət sahələrində norma və qaydalara əməl olunmasına, istehlak bazarında məhsulların keyfiyyətinə, müvafiq standartlara uyğunluğuna ciddi diqqət yetirməlidir.

Daxili bazarın keyfiyyətli ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin olunması üçün Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatlarının mövsümə uyğun tənzimlənməsini diqqət mərkəzində saxlamalıdır.

İqtisadiyyatın vacib sahəsi olan aqrar sektor daim diqqət və qayğı ilə əhatə olunmalıdır. Kənd Təsərrüfatı Nazirliyi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə torpaqlardan səmərəli istifadə, müasir əkin metodu və suvarma üsulları ilə bağlı əhali arasında maarifləndirmə tədbirlərini gücləndirməlidir. Bununla yanaşı, yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi də təmin olunmalıdır.

Əkinçiliyin inkişafında su ehtiyatlarından səmərəli istifadə vacib məsələdir. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi yerli icra hakimiyyəti orqanları ilə birlikdə suvarma suyunun bölgüsünə və sudan səmərəli istifadəyə nəzarəti gücləndirməli, su itkisinin qarşısı alınmalıdır.

Hazırda kənd təsərrüfatı məhsullarının kütləvi yığım dövrüdür. Tələbatdan artıq istehsal olunan kənd təsərrüfatı məhsullarının tədarükü və tələbatın il boyu yerli məhsullarla ödənilməsi məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi tədbirlər görməlidir.

Strateji təyinatına görə mühüm əhəmiyyət kəsb edən taxılın vaxtında və itkisiz yığılaraq ehtiyat anbarlarına və dəyirmanlara qəbulu davam etdirilməlidir.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında əkinçiliklə yanaşı, heyvandarlıq da mühüm əhəmiyyətə malikdir. Dövlət Baytarlıq Xidməti və onun yerli orqanları yaradılmış şəraitdən düzgün istifadə etməli, işlərini günün tələbləri səviyyəsində qurmalıdırlar.

Hesablaşmalar zamanı ödənişlərin nağdsız aparılmasına üstünlük verilməli, ticarət və xidmət obyektlərində quraşdırılan POS-terminallardan səmərəli istifadə olunmalı, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Vergilər Nazirliyi dövriyyədə olan nağd pul kütləsinin azalması üçün tədbirlər görməli, POS-terminallardan istifadə ilə bağlı əhali arasında təbliğat xarakterli tədbirlər gücləndirilməlidir.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi muxtar respublikada telekommunikasiya və poçt xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, rəqəmsal televiziya yayımının və simsiz internetin əhatə dairəsinin genişləndirilməsi, aidiyyəti orqanlarla birlikdə "Elektron hökumət" portalında təklif olunan elektron xidmətlərin işlək olması üçün səylərini daha da artırmalıdır.

Tikinti-abadlıq işləri keyfiyyətlə aparılmalıdır. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bununla bağlı təsirli tədbirlər görməli, müasir və qədim memarlıq elementlərindən istifadə edilməli, inşaat işlərində daha çox keyfiyyətli yerli tikinti materiallarına üstünlük verilməlidir. Su, kanalizasiya, yol, rabitə, elektrik və qaz çəkilişi ilə məşğul olan təşkilatların fəaliyyətində əlaqələndirmə və ardıcıllıq təmin edilməli, izafi xərclərə yol verilməsinin qarşısı alınmalıdır.

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlər cari ildə də davam etdirilməlidir. Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən enerji daşıyıcılarından qanunsuz istifadə hallarının, qaz və elektrik enerjisi itkilərinin qarşısı alınmalı, istehlak olunan qazın və elektrik enerjisinin dəyəri vaxtında ödənilməlidir.

Dövlət Statistika Komitəsi muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı təhlili materialların hazırlanaraq kütləvi informasiya vasitələrində işıqlandırılmasını bundan sonra da davam etdirməlidir.

Mədəniyyət və Turizm Nazirliyi muzeylərdə kadrların yerləşdirilməsi, onların peşə və xarici dil biliklərinin artırılması istiqamətində əməli tədbirlər görməli, mədəniyyət müəssisələrində iş intizamına riayət olunmalıdır.

Gənclər və İdman Nazirliyi Uşaq-Gənclər İdman məktəblərinin fəaliyyətini gücləndirməli, gənclərin fiziki sağlamlığının təmin edilməsi məqsədilə onların idmana cəlbinə, eləcə də muxtar respublika ərazisində olan idman qurğu və obyektlərindən səmərəli istifadəyə diqqəti artırmalıdır.

Təhsil Nazirliyi tabeliyində olan məktəblərdə informasiya-kommunikasiya texnologiyaları üzrə biliklərin artırılması istiqamətində tədbirləri davam etdirməli, yeni tədris ilinə qədər təhsil müəssisələrində elektron təhsilin tətbiqi ilə bağlı aid orqanlarla qarşılıqlı fəaliyyəti təmin etməlidir.

Dövlət Sosial Müdafiə Fondu yeni əmək fəaliyyətinə başlayan işçilərin fərdi uçotunun təşkilinə, onların sosial sığorta şəhadətnaməsi ilə təmin olunmasına diqqəti artırmalı, sığorta-pensiya sistemi ilə əlaqədar maarifləndirici tədbirləri gücləndirməlidir.

Şəhər və rayon icra hakimiyyətləri abadlıq işlərinin keyfiyyətlə aparılmasına, tullantıların vaxtlı-vaxtında yığışdırılmasına, yaşıllıqların mühafizəsinə diqqəti artırmalı, vətəndaşların müraciətləri qanuni həll olunmalıdır. Müəssisə və təşkilatlarda nizam-intizam gücləndirilməlidir.

Hüquq-mühafizə orqanlarının rəhbərləri, muxtar respublika ərazisində yerləşən ordu, hərbi hissə və birləşmələrin komandan heyətləri maarifləndirmə tədbirlərinin və nizam-intizamın artırılmasına diqqəti artırmalıdırlar.

Biz bu gün 2014-cü ilin birinci yarısında görülən işlərə yekun vurduq. Hesabat dövrü ərzində sosial-iqtisadi sahədə əldə olunan nəticələr Naxçıvan Muxtar Respublikasının 90 illik tarixi ərzində ən yüksək göstəricilərdir. Biz buna ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi yoluna sadiq olmağımızla, əməli işimizlə nail olmuşuq.

Bununla da, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış doqquzuncu sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası gəlirlər üzrə 64 857 623 manat, xərclər üzrə 332 008 010 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 iyun 2014-cü il*

## Naxçıvan şəhərindəki muzeylər ziyarət edilir



*Muxtar respublikada mərkəzi icra hakimiyyəti orqanları üçün "Muzey günləri" tərtib edilmişdir. "Muzey günləri"ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Naxçıvan şəhərindəki muzeylərdə olur, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.*

İyunun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Heydər Əliyev Muzeyini ziyarət etmişlər.

Məlumat verilmişdir ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılmış və 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan Respublikasında xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz fəaliyyət göstərir. Bunlar içərisində Naxçıvanda yaradılmış Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Çünki muzey ümummilli liderin sağlığında fəaliyyətə başlamışdır. Muzeydə ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanılmışdır. Ümumilikdə, muzeydə 4536 eksponat vardır. Fəaliyyət göstərdiyi 15 il ərzində muzeyin 230 mindən çox ziyarətçisi olmuşdur.

Vurğulanmışdır ki, muzeydəki eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycanın müasir dövlətçilik tarixinin və ümummilli liderimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali, orta ixtisas və ümumtəhsil məktəblərinin tələbə və şagirdlərinin iştirakı ilə muzeydə müxtəlif mövzularda açıq dərslər keçilir.

**"Şərq qapısı"**

* * *

Dünən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının kollektivi də Heydər Əliyev Muzeyini ziyarət etmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Daxili İşlər Nazirliyinin kollektivləri Açıq Səma Altında Muzeydə, Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Dövlət Gömrük Komitəsinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, Maliyyə və Vergilər nazirliklərinin kollektivləri Ədəbiyyat Muzeyində, Nəqliyyat və İqtisadiyyat və Sənaye nazirliklərinin əməkdaşları isə Dövlət Tarix Muzeyində olmuşlar. Muzeylərə gələnlərə həmin mədəniyyət müəssisələrinin yaradılması, fəaliyyəti, muzeylərdə nümayiş və mühafizə olunan eksponatlar barədə ətraflı məlumatlar verilmişdir.

**Xəbərlər şöbəsi**

**Milli tariximizin qürurla yazılmış səhifələri çoxdur. Ancaq bu səhifələr içərisində ədalətin və gücün bütövlüyünü özündə əks etdirən bir tarixi gün var – 26 iyun! Məhz həmin tarix ölkəmizdə ilk Milli Ordu hissələrinin yarandığı gündür. Azərbaycan Milli Ordusu ölkəmizin daxili və xarici düşmənlərinə qarşı mübarizə aparan ədalətin, torpaqlarımızı güc yolu ilə işğal etməyə çalışan qüvvələrə qarşı gücün göstəricisi olmaqla, Şərqin ilk müstəqil dövlətinin azad düşüncəli vətəndaşlarının milli şərəfini qorumaq zərurətindən yaranmışdır. Ancaq Azərbaycan Ordusu bu missiyasını uzun müddət davam etdirə bilmədi. Cümhuriyyətin süqutu ordumuzun da azadlığına son qoydu. Sovetlər Birliyi tərkibində olduğumuz 70 il ərzində xalqımızın azadlığının və bu azadlığı ona daddıracaq Milli Ordu qüvvələrimizin əsl bərpası isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra mümkün oldu.**

# Güclü ordu düşmənə gözdağıdır

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət strukturlarının siyasi varislik ənənələri əsasında bərpası həm də böyük öndərin milli dövlətçilik ideyalarına sədaqətindən irəli gəlirdi. Ötən əsrin sonlarında yeni formalaşan Silahlı Qüvvələrimizin təşkilində milli kadrlara olan ehtiyacın əsas hissəsi dahi şəxsiyyətin sovet dövründə yetişdirdiyi hərbçi kadrlar idi. Ulu öndər Silahlı Qüvvələrimizin Ali Baş Komandanı kimi on il müddətində çox mühüm işlər gördü, müharibə vəziyyəti hökm sürən bir ölkədə regionun ən güclü ordusunu qurdu. Heydər Əliyev ideyalarından güc alan Milli Ordumuz son 11 il ərzində daha da təkmilləşdi, formalaşdı, müasir döyüş qabiliyyətinə malik peşəkar, ölkəsinin təhlükəsizliyini istənilən anda və vəziyyətdə təmin etməyə qadir Silahlı Qüvvələrə çevrildi...





### *Əlahiddə Ordunun yaradılmasından narahat olanlar və ya informasiya savaşının "qəhrəmanları"*

Naxçıvan Muxtar Respublikası nəinki Azərbaycanın, bütövlükdə, türk dünyasının ən həssas regionlarından biridir. Muxtar respublika ərazi baxımından ölkənin əsas torpaqlarından ayrı düşsə də, sosial-iqtisadi, hərbi-siyasi cəhətdən durmadan inkişaf edən və bu inkişafını blokada vəziyyətində davam etdirən qədim Azərbaycan torpağıdır. Naxçıvan hər zaman hər kəsin marağında olan bir diyar olub. Ötən əsrin sonlarında bu torpaq uğrunda döyüşlər gedib, igid oğullarımız şəhid olublar. Ancaq heç bir halda bu qədim diyar düşmənə təslim olmayıb. Naxçıvanın təhlükəsizliyi Azərbaycan dövlətinin, ölkə başçısı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz bu təhlükəsizliyin yüksək səviyyədə təminatı üçün ötən ilin dekabr ayında Azərbaycan Prezidentinin fərmanı ilə Müdafiə Nazirliyinin Əsasnaməsi təsdiq olundu və Əsasnaməyə görə, Naxçıvanda yerləşən 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı. Muxtar respublikanın müdafiəsinin etibarlı təminatı üçün atılan bu addım Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələ oldu. Ötən müddət ərzində bu ordunun arsenalının ən müasir vasitələrlə təminatı, şəxsi heyətin peşəkar hərbi təlimlərdə iştirakı, əlbəttə, düşmənlərimizi narahat etməyə bilməzdi. Elə bu yaxınlarda atəşkəsin Naxçıvan tərəfindən dəfələrlə pozulduğunu Qərbə inandırmağa çalışan Ermənistan rəhbərliyinin canfəşanlığı da bu narahatlıqdan doğurdu. Yalan məlumat yaymaq və bu məlumatı məcburiyyət qarşısında qalaraq sonra təkzib etmək təcrübəsinə malik olan erməni hərbi rəhbərliyinin cəbhə boyu gərgin vəziyyətin saxlanılmasına maraqlı olması da bizim üçün yeni mövzu deyil. Ancaq unutmayaq ki, müasir dünyada istənilən müharibə qanunsuz hesab edilsə də, müharibənin və ya müharibə vəziyyətinin öz qanunları var. Müharibə vəziyyətində informasiya savaşının aktuallığı daha önə keçir. Sosial medianın inkişaf etdiyi müasir dövrdə istənilən dezinformasiyanın çox sürətlə yayılması və ictimai rəyə təsiri doğru məlumatdan daha çox cəlbedici olur. Təəssüflər olsun ki, yaxın günlərdə muxtar respublikanın düşmənlə təmas xətlərində "gərgin" vəziyyətin yarandığını, "əhalinin təşviş içərisində olduğunu" ölkə mətbuatında yayanların sanki düşmənlə eyni sırada durduqlarını müşahidə etməkdəyik. Culfa rayonunun ucqar Ləkətağ kəndində "baş verənlər"dən sonra bu dəfə Şahbuz rayonunun Batabat yüksəkliyində yerləşən səngərlərimizə doğru yol alırıq. Məqsədimiz Silahlı Qüvvələrimizin yaradılmasının növbəti ildönümünü qeyd edən əsgərlərimizin bayram tədbirində iştirak etmək və səngərdəki vəziyyətlə yerində tanış olmaqdır...

### *Batabat yaylağı, bayram konserti və səngər söhbətləri...*

Qeyd edək ki, əsgərlərlə görüşə tək getmirik. Muxtar respublikanın elm, təhsil və mədəniyyət müəssisələrinin nümayəndələrinin iştirak edəcəyi bayram tədbirinə kütləvi informasiya vasitələrinin əməkdaşları da dəvət olunmuşdu. Əlahiddə Ümumqoşun Ordusu komandanlığının qonaqlar üçün ayırdığı iki avtobusla Naxçıvanın dillər əzbəri olan Batabat yaylağına bir saatdan bir az artıq müddətə yetişirik. Turizm zonası kimi diqqət mərkəzində olan Batabatda yaradılan infrastruktur hər addımda özünü göstərir. Rahat asfalt yol, istirahət üçün yaradılmış müasir infrastruktur, yamyaşıl təbiət, sərin sulu bulaqlar buranı əsl cənnət məkanına çevirir. Yuxarıya doğru qalxırıq. Uzaqdan üçrəngli bayraqlarımızla bəzədilmiş əsgəri-məişət-yaşayış kompleksi bu yaşıllıqların fonunda daha gözəl və qürurlu görünür. Nəhayət, mənzil başına yetişib avtobusdan enirik. Hərbi hissənin komandanlığı bizi gülərüzlə qarşılayır, hal-əhval tutduqdan sonra çay süfrəsi ətrafında yerimizi tuturuq. Qısa tanışlıqdan sonra bayram tədbiri başlayır. Tədbirdə çıxış edənlər ordumuzun keçdiyi tarixi inkişaf yolundan danışır, xalq-ordu birliyinin sarsılmaz olduğunu, əsgərlərimizlə qürur duyduqlarını söyləyirlər. Sonra hamılıqla bayram konsertində iştirak edirik. Vətənpərvərlik ruhunda şeirlər səsləndirilir, mahnılar oxunur, əsgərlərimiz milli musiqinin sədaları altında rəqs edirlər. Konsertdən sonra, əvvəldən planlaşdırdığımız kimi, səngərdə keşik çəkən əsgərlərimizlə görüşə tələsirik. Bizim üçün ayrılmış avtomobillə yuxarıya doğru istiqamət alırıq. Avtomobil irəliyə hərəkət etdikcə bu yerin gözəllikləri – Fərhad evi, üzən ada, yaşıl təpələr daha aydın görünür. Günəş şüalarının ətrafa yayılmasına baxmayaraq, sərin hava bizə xoş gəlir. Hətta maşından enərkən aramızda üşüyənlər də olur. Və nəhayət... bir neçə dəqiqədən sonra düşmənlə təmas xəttində keşik çəkən əsgərlərimizin yanına yetişirik. Bizi müşayiət edən hərbi hissənin zabitlərindən öyrənirik ki, olduğumuz yüksəklik dəniz səviyyəsindən 2800 metr yüksəklikdə yerləşir. Səngərlə irəliyə doğru hərəkət edirik. Qeyd etmək lazımdır ki, buradakı səngər çox mükəmməl qurulub, hərəkət etmək çox rahatdır. Bir az irəlidə yerləşən müdafiə istehkamları qalın divarlarla əhatə olunub, nəzarət üçün əlverişli şərait yaradılıb. Müşahidə postlarında təyinatı üzrə yerləşən əsgərlər düşmən ərazisini tam görmək və nəzarətdə saxlamaq imkanına malikdirlər. Növbətçi zabitdən bir daha icazə alıb xidmət edən əsgərlərdən bir neçəsi ilə qısa söhbət edirik. Əsgər Cavad Mirzəyev Lənkəran şəhərindəndir. Bir ildən artıqdır ki, hərbi xidmətdədir. Xidmətindən çox razıdır. Səngərdə xidmət etməyin onun üçün çox maraqlı, eyni zamanda qürurverici olduğunu deyir:

– Gördüyünüz kimi, bu müşahidə postunda mən düşmənin postunu tam nəzarətdə saxlaya bilirəm. Bizim durduğumuz nöqtə yüksəkdə olduğundan onların fəaliyyətini daha yaxşı izləyə bilirəm. Azərbaycan əsgəri kimi Vətənə xidmət etməkdən, həm də belə bir yerdə xidmət etməkdən qürur duyuram.

Digər söhbət etdiyimiz əsgər Səyyad Ağayev isə Bakı şəhərinin Xəzər rayonundan hərbi xidmətə çağırılıb. Söhbət əsnasında öyrənirik ki, xidməti bitirməsinə az qalıb. Bu səngərləri özü üçün ən doğma məkan hesab edir. Əli ilə qarşı tərəfi göstərib deyir:

– Düşmənin nə qədər hiyləgər olduğunu bilsək də, qorxaq olduğunu da bilirik. Bu postdan apardığım uzun müşahidələrin nəticəsi kimi deyə bilərəm ki, onlar xidmətdə çox səhlənkardırlar, çoxu candərdi xidmət edir. Bizim əsgərlərin məsuliyyəti, sayıqlığı onlardan qat-qat çoxdur – buna tam əmin ola bilərsiniz. Onların istənilən təxribatına layiqincə cavab verməyə hazırıq. Bəzən bu cavab üçün darıxırıq da.

Səngərdəki digər əsgərlərlə də söhbət edirik. Hər birinin yüksək əhval-ruhiyyədə olduğu, verilən tapşırıqların öhdəsindən layiqincə gələcəyi gözlərindən bəlli olur. Hərbi hissənin zabiti, kapitan Cavanşir Hüseynov əsgərlərin belə yüksək ruhda olmasını onlar üçün keçirilən peşəkar təlimlərdən, aparılan ideoloji təbliğatdan qaynaqlandığını deyir. Azərbaycan əsgərinin qorxmazlığını, düşmənə istənilən anda layiqli cavab verəcəyini deyən Cavanşir Hüseynov cəbhədəki vəziyyətlə bağlı yalan şayiələrin yayılmasına çalışanların ordumuzun düşmənləri olduğunu bildirməkdən də çəkinmir.

Sonda bütün əsgərlərimizi bayram münasibətilə təbrik edib, xidmətlərində uğurlar arzulayaraq oradan ayrılırıq.

✍ **Səbuhi HƏSƏNOV**

# Kompleks quruculuq tədbirləri Qaraçuq kəndini də əhatə edib

***Naxçıvan şəhərinin Qaraçuq kəndi muxtar respublikanın böyük yaşayış məntəqələrindən biridir. 1250 təsərrüfatda 4200 sakinin yaşadığı inzibati ərazi dairəsinin tərkibində Bulqan kəndi də var. Qaraçuqda 1970-ci ildə məktəb, icra nümayəndəliyi, həkim ambulatoriyası, musiqi məktəbi üçün binalar istifadəyə verilib.***

Ötən müddətdə kənd xeyli böyüyüb, əhalinin sayı artıb. Bütün bunlar kənddə fəaliyyət göstərən təşkilatlara müasir iş şəraiti yaradılması zərurətini ortaya qoyub. Odur ki, mart ayından başlayaraq Qaraçuqda bir sıra quruculuq işlərinə start verilib. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları kənddə məktəb binasının, həkim ambulatoriyasının yenidən qurulması, musiqi məktəbi, kənd və xidmət mərkəzləri üçün yeni binaların tikintisi ilə məşğuldurlar. Böyük tikinti meydançasını xatırladan kənddə inzibati ərazi dairəsi üzrə nümayəndə Əli Novruzovla görüşdük. O, Qaraçuqda aparılan kompleks quruculuq tədbirlərinə görə kənd adamları adından dövlətimizə dərin minnətdarlığını bildirdi. Qeyd etdi ki, Qaraçuq camaatı görülən bu işləri onlara göstərilən böyük dövlət qayğısı kimi dəyərləndirir. İcra nümayəndəsi ilə birlikdə tikinti obyektlərində olduq. İnşaat işlərini həyata keçirən idarənin rəisi Novruz Qalayev bildirdi ki, layihəyə əsasən, 630 şagird yerlik məktəb binasının bir korpusu 3, iki korpusu isə zirzəmi ilə birlikdə dördmərtəbəlidir. İnşaatçılara yaradılan şərait obyektdə tikinti işlərini vaxtında və keyfiyyətlə həyata keçirməyə imkan verib. Ötən dövr ərzində inşaat işlərinin böyük bir qismi başa çatdırılıb. Həmin tədbirlər yaxınlıqda inşa olunan musiqi məktəbinin binasında da həyata keçirilib.

Qaraçuq sakinlərinin sağlamlığı keşiyində dayanacaq həkim ambulatoriyası binasının yenidən qurulması da sürətlə davam etdirilir. İki mərtəbədən ibarət olacaq binada ağxalatlı peşə sahibləri üçün müasir iş şəraiti yaradılacaq.

Yaxınlıqdakı digər bir obyekt isə xidmət mərkəzi üçün nəzərdə tutulub. Burada ərzaq, sənaye malları mağazaları, ət satışı dükanı fəaliyyət göstərəcək.

Yeni tikililər sırasında Qaraçuq Kənd Mərkəzinin binası da var. Burada icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, mədəniyyət evi və digər qurumların normal fəaliyyəti təmin ediləcək.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin rəisi Novruz Qalayev onu da bildirdi ki, yeni obyektlərin yaxınlığında yerləşən evlərin həyət divarları da yenidən işlənir. Quruculuq tədbirləri başa çatdıqdan sonra obyektlərin yerləşdikləri ərazilərdə abadlıq işləri aparılacaq, kəndarası yollara qara örtük salınacaq.

Kəndə gəlmişkən burada aparılan quruculuq tədbirlərinə Qaraçuq sakinlərinin münasibətlərini öyrəndik. Kənd sakini Murad Əliyev bildirdi ki, quruculuq işlərinin aparılması hər bir qaraçuqlunu ürəkdən sevindirir. Çünki bu ünvanlardan hər birimiz istifadə edəcəyik. Həmin obyektlərdə çalışanlara yaradılan şərait bu ünvanlarda əhaliyə göstərilən xidmətin də səviyyəsinin yüksəldilməsinə müsbət təsirini göstərəcək.

✍ **Muxtar MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu cənubdan Araz çayı, şimal-qərbdən Saraybulaq dağlarının cənub-şərq ətəkləri ilə əhatələnir, cənub-şərqdən Dəhnə və Vəlidağ yüksəklikləri ilə Şərur düzündən ayrılır. 800-940 metr mütləq yüksəkliyə malik olan Sədərək şimaldan cənuba və qərbdən şərqə doğru meyillidir. Münbit torpaqlara malik olan bu düzənlik rayonun kənd təsərrüfatında mühüm rol oynayır.***

# Torpaqlardan təyinatı üzrə istifadə məhsuldarlığın yüksəldilməsində əsas amillərdən biridir

Sədərək rayonunda torpaq örtüyünün əmələ gəlməsində və onun dəyişilməsində relyef xüsusiyyətləri öz təsirini göstərməkdədir. Rayonda düzənlik sahə, yəni Arazboyu mailli düzənlik isti və quraq iqlim şəraitində yaranmış yarımsəhra landşaftlı bitki və torpaq örtüyünə malikdir. Rayon ərazisində zonanın spesifik xüsusiyyətlərinə uyğun olaraq, boz, boz-qonur, çəmən-boz və subasar torpaqlar yayılmışdır.

Qeyd etmək lazımdır ki, Sədərək rayonunun qəsəbə və kəndlərinin ərazisində, əsasən, şırım üsulu ilə payızlıq və yazlıq taxıl, üzüm və şəkər çuğunduru əkinlərinin aparılması daha məqsədəuyğundur. Bununla yanaşı, əkin dövriyyəsində növbəli əkin sistemini tətbiq etmək məqsədi ilə yem bitkiləri və paxlalı bitkilərin əkini də aparılmalıdır. Bu, heyvandarlığın da inkişafına təsir edən amillərdəndir.

Təcrübə göstərir ki, rayon ərazisində yuxarıda göstərilən əkinlərlə yanaşı, meyvə və tərəvəz bitkilərinin də əkini aparıla bilər. Belə ki, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, xəritələşdirmə və maarifləndirmə işlərinin həyata keçirilməsi nəticəsində rayon ərazisində 2014-cü ilin yaz mövsümündə 15 hektaradək yeni meyvə bağı salınmış, 7 hektardan artıq bağlarda isə bərpa işləri aparılmışdır. Son illər ərzində proqrama uyğun olaraq, rayonun qəsəbə və kəndlərində 77 hektardan çox meyvə bağı salınmışdır. Bu da rayon əhalisinin maddi rifahının daha da yaxşılaşmasına öz təsirini göstərməkdədir. Rayonda meyvə bağlarının salınması ilə yanaşı, 2014-cü ilin yazında 55 hektar sahədə bostan əkini aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində nasos stansiyalarının yenidən qurulması və Şir arxı üzərində yeni nasos stansiyasının tikintisi başa çatdırılmışdır. Mənbəyini Şir arxından götürməklə Heydərabad qəsəbəsi, Sədərək və Qaraağac kəndləri ərazisində suvarma suyu üçün sudaşıyıcı xətlərin çəkilməsi və şəbəkələrə ayrılması rayonda suya olan tələbatı daha da yaxşılaşdıraraq torpaq mülkiyyətçilərinin torpaqlardan səmərəli istifadələrinə şərait yaratmışdır.

Coğrafi şərait, ərazidə yayılmış torpaq tipləri və iqlim xüsusiyyətləri nəzərə alınmaqla əkinlərin keçirilməsi, əkin atlaslarına uyğun torpaq sahələrindən istifadə edilməsi və məhsuldarlığın yüksəldilməsində intensiv tədbirlərin həyata keçirilməsi ilə bağlı qəsəbə və kəndlərdə torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işinin aparılması nəticəsində torpaq istifadəçiləri mülkiyyətlərində olan torpaq sahələrindən səmərəli və təyinatı üzrə istifadə edərək boş qalan əkinəyararlı torpaq sahələrini də əkin dövriyyəsinə qatmışlar.

**Hüsaməddin HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Sədərək Rayon Şöbəsinin müdiri***

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Gəmiqayadan və qədim keramika nümunələrindən Naxçıvan xalçalarına süzülən ornamentlər

***Mental dəyərlər hər bir xalqın tarixində onun milli pasportu missiyasını özündə ehtiva edir. Bu dəyərlər sonralar digər xalqların mədəniyyətlərinə daxil olsalar da, əsas ştrixləri məhz onların əsl sahibi olan xalqın mədəniyyətində zaman-zaman büruzə verir. Belə dəyərlərin içərisində xalçaçılıq sənəti mühüm yer tutur.***

Azərbaycan məişətinin tərkib hissəsi olan bu sənətin qədim tarixi köklərə malik olduğunu göstərən faktlardan biri Naxçıvan şəhəri yaxınlığında yerləşən I Kültəpə arxeoloji abidəsindən tapılan iy ucluqlarıdır. Bundan əlavə, e.ə.V-IV əsrlərdə yaşamış yunan alimi Ksenefontun farsların məşhur Midiya xalçalarından istifadə etməsi haqqında məlumatı, Mingəçevir ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş hana hissələri, yun ip qalıqları xalçaçılıq sənətinin miladdan öncəki dövrlərdən başlayaraq orta əsrlər dövrü də daxil olmaqla əsrlər boyu türk xalqlarının əsas məşğuliyyət növü olduğunu təsdiqləyir. Ərəb müəllifləri X əsrdə xalçaları ilə məşhur olan Xoy, Ərdəbil və Muğan şəhərləri ilə yanaşı, Naxçıvan şəhərinin də adını qeyd edirlər. Təsadüfi deyil ki, monqollar Azərbaycana gəldikdən sonra buradan minlərlə xalça aparmışdılar. Bu da xalçaçılığın Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvanda orta əsrlər zamanında böyük inkişaf dövrü keçdiyini göstərən amillərdəndir. Bu dövrə aid xalçaların qədimliyi onlar üzərindəki ornamentasiyada daha qabarıq büruzə verir. Ornamentlər xalçaların toxunma tarixini və mənsubiyyətini göstərən əlamətlərdəndir.

İnsan ruhunun şəkil dili olan ornamentlər ilk baxışda sadə görünsələr də, əslində, dərin məna ifadə edirlər. İlk vaxtlar primitiv formada meydana çıxan bu simvollar qədim fəlsəfi düşüncənin miniatürləşmiş təzahür formasıdır. Sadə bir naxışdan dərin şifrələrədək yol qət edən bu işarələr bu gün petroqlif kimi tanıdığımız şəkli yazıların ilk rüşeymi olmuşdur. İnsanlar bu işarələr vasitəsi ilə öz düşüncələrini əvvəl qayalarda, mağaralarda, sonra isə hazırladıqları sənətkarlıq nümunələri üzərində ifadə etməyə çalışmışlar. Beləliklə, daşlardan keramikaya, oradan da xalçalara köçən ornamentlər, sadəcə, naxış deyil, insanların fikirlərinin şəkil dili olan petroqliflərdir.



Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılan xalçalardan birinin üzərindəki ornamentlər bu cəhətdən diqqəti daha çox cəlb edir. Xalçanın üzərində təsvir edilən "S", "T" şəkilli piktoqramlar, spiral və buynuzşəkilli zoomorf təsvirlər, həmçinin romblar, bucaqlar, ziqzaqlar, dairələr və onların interyerindəki svastika işarəli ornamentlər Naxçıvanın Erkən Tunc dövrü keramikası üzərindəki piktoqramların məcmusunu özündə əks etdirir. Sanki bütöv bir əlifbanı ifadə edən bu ornamentlər dil açıb danışır.

Qeyd etmək lazımdır ki, bu işarələrin semantikası ilə bağlı Azərbaycan mifologiyasında müxtəlif rəvayətlərə rast gəlmək mümkündür. Dairələrlə ifadə olunan Günəş təsvirinin insanların astral inancları ilə bağlı olduğu qədim Şərq mifologiyasında da geniş yayılmışdır. Günəşin müqəddəs tutulması bu gün də bəzi andlarda qalmaqdadır: "O işıq haqqı", "Yalan deyirəmsə, o işığa kor baxım" və sair.

Qədim şərq mifologiyasında romblarin və kvadratların Yer kürəsini, bucaqların dağları, ziqzaqların isə göy aləmində baş verən toqquşmaları ifadə etdiyi bildirilir. Xalçanın üzərindəki buynuzşəkilli qoşa spiralların iki dünyanın mövcudluğu haqqında qədim əfsanələrlə harmoniya yaratdığını nağıl qəhrəmanlarımızın işıqlı dünyadan qaranlıq dünyaya getməsi, dairə üzərində dayanmış quş təsvirinin isə qəhrəmanları xilas edən Simurq quşunu ifadə etməsi xalça ornamentlərinin dərin mənasını ortaya qoyur. Qeyd edək ki, xalçalar üzərində salınmış müxtəlif motivli ornamentlər öz başlanğıcını mənəvi cəhətdən miflərdən, maddi cəhətdən isə Gəmiqaya təsvirləri və keramika üzərindəki prototiplərdən götürmüşdür.

Bu təsvirlər qədim Naxçıvan tayfaları arasında heyvan kultunun geniş yayılmasını əks etdirir. E.ə. IV-I minilliklərə aid olan Gəmiqaya təsvirlərində, həmçinin Tunc dövrü keramikasındakı təsvirlərin bugünkü xalçalar üzərində də eyni motivlə təkrarlanması buranın avtoxton sakinlərinin qədim türk tayfaları olduğunu sübut edə bilən yüzlərlə faktdan, sadəcə, biridir.

Diqqəti cəlb edən cəhətlərdən biri də xalçalar üzərindəki ornamentlərin bənzərlərinə qədim şumer işarələrində rast gəlinməsidir. Həndəsi motivli ornamentlər şumerlərin sevilən işarələrindən olmuşdur. Xüsusilə bucaqlar və labirintşəkilli romblara bu işarələr içərisində tez-tez rast gəlinir.

Beləliklə, xalçalar üzərindəki müxtəlif formalı ştamplar, zoomorf-antropomorf təsvirlər, həmçinin romb, bucaqşəkilli işarələr və onların keramika və qayalar üzərindəki prototipləri vahid türk mədəniyyətinin tərkib hissəsi olmaqla qədim incəsənətin daşlardan keramikaya, oradan da xalçalara köçürülmüş xələfləridir. Təsadüfi deyil ki, belə ornamentlərə Sibir, Altay türklərinin mədəniyyətində, hun qəbirlərində, Səlcuq sultanı Qılınc Arslanın Konya şəhərində mühafizə edilən saray divarlarının qalıqları üzərində, bir sözlə, türk mədəniyyətinin yayıldığı bütün regionlarda rast gəlmək mümkündür. Bu da onu göstərir ki, xalçalar üzərindəki ornamentlər, sadəcə, bəzək növü deyil, həmçinin Naxçıvanın qədim türk yurdu olduğunu özündə ehtiva edən təkzibedilməz faktordur.

**Zeynəb QULİYEVA**
***tarix üzrə fəlsəfə doktoru***

Yeni nəşrlər

## Bal arısının xəstəlikləri və zərərvericiləri ilə necə mübarizə aparmalı?




***Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, biomüxtəlifliyi ilə seçilən əlverişli təbiəti, relyef quruluşu, müxtəlif və məhsuldar torpaq örtüyü bu ərazidə qədim zamanlardan insanlar tərəfindən bir sıra təsərrüfat sahələrinin meydana gəlməsinə və inkişafına səbəb olmuşdur. Bu təsərrüfat sahələrindən biri də xalqımızın məişət həyatında əsas yerlərdən birini tutmuş arıçılıqdır.***

Arıçılıq hal-hazırda təkcə insan üçün bal verən bir təsərrüfat sahəsi deyildir. Elmin və təbabətin inkişafı arıların bir sıra tibbi və təsərrüfat əhəmiyyətli məhsullar hazırladığını müəyyən etmiş və arıçılıq farmakologiya sənayesini xammalla təmin edən bir sahəyə çevrilmişdir. Təbiətin möcüzəsi olan bu kiçik varlıqlar bal, mum, güləm, arı südü, arı zəhəri kimi çox dəyərli məhsullar hazırlamaqla yanaşı, entomofil bitkiləri tozlandırmaqla da məhsuldarlığın artmasında mühüm rola malikdirlər. Bu baxımdan arıçılığın inkişafı diqqət mərkəzindədir və Naxçıvanda arıçılığın inkişaf etdirilməsi üçün geniş imkanlar yaradılmış, yerli şəraitdə arı ailələrinin və onlardan əldə olunan əmtəəlik məhsulların miqdarı artaraq bütün dövrlərlə müqayisədə ən yüksək həddə çatdırılmışdır. Bu günə qədər arıların bir çox xəstəlikləri, onların törədiciləri, xəstəliklərə qarşı mübarizə tədbirləri müəyyən edilmişdir. Respublikamızda arı xəstəliklərinə həsr olunmuş bir neçə ədəbiyyat nəşr olunsa da, bəzi arı xəstəliklərinin aşkar edilməsi onlara qarşı mübarizə vasitələrinin daim yenilənməsi, profilaktik tədbirlərin müasirləşməsi məsələsini aktual etmişdir. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin ixtisaslı mütəxəssisləri biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov, biologiya üzrə fəlsəfə doktoru, dosentlər Elsevər Əsədov, Həbib Hüseynov, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirov və baytarlıq üzrə fəlsəfə doktoru Yunis Rüstəmlinin həmmüəllifliyi ilə çap edilən "Bal arısının xəstəlikləri və zərərvericiləri" adlı kitab arıçılığın bir sıra aktual problemlərinin həllini özündə əks etdirən sanballı əsərdir.

Bal arıları cəmiyyət halında yaşayan, ailədə çox ciddi iş bölgüsü həyata keçirən canlılar olub, yaşayış yerlərini hər zaman təmiz, daim havası dəyişdirilən, xəstəliklərdən qorunan halda saxlayırlar. Amma buna baxmayaraq, arıların çoxlu düşmənləri və xəstəliktörədiciləri mövcuddur. Bal arısının infeksion, invazion və yoluxmayan xəstəlikləri, zərərvericiləri, yırtıcıları, arıxanada aparılan baytarlıq-sanitariya tədbirləri, mühit faktorlarının arılara təsiri haqqında son elmi nailiyyətləri özündə əks etdirən bu nəşr arıçılıq sahəsində hazırlanmış mükəmməl dərs vəsaitidir. Yeni nəşrdə arı xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasında istifadə edilən dərman vasitələri haqqında məlumat verilir. Kollektiv elmi tədqiqatların, birgə təcrübələrin məhsulu olan dərs vəsaiti Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuşdur.

Kitabda arı ölümlərinə səbəb olan faktorlar geniş işıqlandırılmaqla yanaşı, dünya alimlərinin son dövrlərdə əldə etdiyi nailiyyətlər də öz əksini tapmışdır. Bu kitab həvəskar və peşəkar arıçılar, baytarlıq mütəxəssisləri, orta ixtisas və ali məktəblərin müvafiq fakültələrinin tələbələri, magistrantlar, doktorantlar, müəllimlər, aqronomlar, ekoloqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş faydalı əsərdir.

**Mehriban SULTAN**

# İdman və sağlamlıq

***Müstəqil Azərbaycanın gələcəyini təmin etmək üçün fiziki cəhətdən sağlam nəslə böyük ehtiyac var. Fiziki cəhətdən sağlam olmaqsa idman və bədən tərbiyəsi ilə müntəzəm məşğul olmaqla mümkündür. İdmanın hər yaşda faydalı olduğunu söyləyən mütəxəssislər qeyd edirlər ki, əsas amil idmanın faydalarını nəzərə almaqdır.***

### *İdmanın sağlamlıq üçün şərtləri*

Hansı yaşda olursa-olsun, idmanın insan üçün faydalı olduğunu bilirik. Ancaq idman edərkən yaş amilini və bədəndəki xəstəlik faktlarını, həmçinin idman növünün törədəcəyi bəzi riskləri nəzərə almalıyıq. Xüsusilə kişilərin daha iddialı olub, futbol kimi idman növünü seçdiklərinə diqqət etsək, görərik ki, bu idman növü üçün ürək problemi qaçılmazdır. İdman etməkdə məqsəd sağlamlığımızı qorumaqdır. Bunun üçün sağlamlığımıza zərər vurmayan idman növünü seçməliyik. Nizamlı bir şəkildə edilən idmanın təsirini bir-üç ay ərzində görmək mümkündür, amma məşq etməyi buraxsanız, onun faydalı təsirləri qısa müddətdə itər. Peşəkar idmançı olsanız da, idmanı buraxdığınız zaman bu təsir yaşanar və keçmişdə edilən idman gələcək yaşda insan üçün o qədər də faydalı olmaz. Daha əvvəl heç idman etməyən insanlara ürək müalicəsindən keçdikdən sonra həftənin beş günü, ən azı yarım saat və ya həftədə 3 gün 1 saat olmaq şərtilə orta tempdə idman etmələri məsləhət görülür.

İdmana başlama yaşı, kimlərin idman edə biləcəyi, hansı idman növlərinin nə qədər müddətdə edilməsi lazım olduğu haqqında suallara mütəxəssislər aşağıdakı cavabları veriblər:

*- sağlamlıq mövzusunda diqqətə çarpan bir şikayəti olmayan, müəyyən səviyyədə fəaliyyəti olan kəslər sadə səviyyədə (orta templi gediş kimi) bir idmana hər yaşda həkim nəzarəti olmadan başlaya bilər;*

*- tamamilə sağlam fərdlərin ciddi səviyyədə idman fəaliyyətinə başlamazdan əvvəl kardioloji müayinədən keçmələri məsləhətdir. Xüsusilə erkən yaşlarda problemə yol aça bilən və idman fəaliyyəti baxımından mütləq risk daşıyan bəzi xüsusi narahatlıqlar bu müayinə ilə aşkarlanır.*

*- ancaq həyatının əhəmiyyətli bir hissəsini hərəkətsiz keçirmiş, artıq çəkisi olan (bədənin kütlə indeksi 30-dan çox olanlar), siqaret çəkən, xolesterol yüksəkliyi olan, yəni ürək-damar xəstəliklərinin inkişafına yol aça biləcək risklərdən ən az birinə malik olan şəxslər məşq proqramına başlamazdan əvvəl mütləq kardioloji müayinədən keçməlidirlər.*

### *Cavablandırılan suallar*

İdman sahəsində bəzi müəmmalı məsələlər var ki, artıq buna da cavab tapılmışdır. Aparılan testlərdən sonra insanlar tərəfindən ən çox yönləndirilən 6 suala bu cür cavablar verilmişdir:

***1.İdman edən şəxs necə yaşında olmalıdır?***

*– 35 yaşdan yuxarı olan insanlar erkən inkişaf edən xəstəliklər səbəbindən daha diqqətli davranmalıdırlar.*

***2. İdman etmək istəyən insanın gündəlik fəaliyyəti necə olmalıdır?***

*– Gündəlik gediş məsafəsi, evdaxili fiziki fəaliyyət, iş yerindəki hərəkət səviyyəsi, məşqə ayırdığı həftəlik zaman kimi mövzuların araşdırılması lazımdır. Fəaliyyət səviyyəsi çox aşağı olan fərdlərdə başlanması düşünülən məşqin tempi də aşağı olmalıdır. Məşq resepti verilərkən sıxlığı, şiddəti və hər bir seansın müddəti də nəzərə alınmalıdır. Tempin birdən artırılmaması da diqqət yetirilməsi lazım olan məqamdır.*

***3. Gündəlik idman edərkən daha çox nəyə fikir verilməlidir?***

*– Məşqlə bağlı sinə ağrısı, anormal yorğunluq hissi, nəfəs darlığı və ürəkkeçmə kimi şikayətlərin olub-olmadığına baxılmalıdır.*

***4. Qadınların idmanla məşğul olmaları hansı yaş dövrü üçün daha uyğundur?***

*– 60 yaşdan öncə qadınlarda ürək-damar xəstəliyi, koronar arteriya xəstəliyinin inkişaf riski kişilərə görə daha aşağıdır. Qadınlarda ürək xəstəlikləri kişilərə nisbətən 10 il gec başlayır. 60 yaşa qədər olan qadınlarda məşqlə bağlı risklərin daha aşağı olduğu müəyyənləşmişdir.*

***5. 40-50 yaşından sonra idmana başlayan insan daha çox nələrə əməl etməlidir?***

*– Bu yaşlarda məşqin faydaları tədricən ortaya çıxar. Bədənin fiziki halının artımındakı diqqətçəkici bir səviyyəyə çatması üçün orta hesabla 1-3 aylıq bir müddət lazımdır. Hər yaşda insan idmandan faydalana bilər. Hər hansı bir yaşda idmana başlamaq üçün "gecikmişəm artıq" demək düzgün deyil.*

***6. Ürək ritminin düz olması, təzyiq, şəkər xəstəliyi, stent qoyulması idman etməyə mane ola bilərmi?***

*– Şəxsin ürək-damar problemi, diabet xəstəliyindən, hətta ürək çatışmazlığından əziyyət çəkməsi məşq etməsi üçün bir maneə deyil. Ancaq məşqin gücü, müddəti və sıxlığı xəstənin vəziyyətinə görə nizamlanmalıdır.*

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 563